

*Allahşükür QURBANOV*

## ZƏFƏR YOLLARINDA

Şanlı zəfər tarixini biz yazdıq qanımızla,
Haqq yolunda savaş açdıq haqqa inamımızla.
Şəhadətə salam verdik öz şirin canımızla,
Vətənin şəhid övladı, şəhadətin mübarək!

Dünya heyrət içində seyr elədi bu milləti,
İşğalçını məhv elədik, silib atdıq əsarəti,
Millət - dövlət birliyilə bərpa etdik hürriyyəti,
Ana yurdum Qarabağım, hürriyyətin mübarək!

Topdan güclü cürətilə düşmən bağrını yaran,
Sıldırımlı qayaları dırnağılə qoparan,
Azərbaycan bayrağını Şuşamıza aparan,
Ey qəhrəman qazilərim, cəsarətin mübarək!

Vətən, dövlət işlərində müdrik planlar quran,
Təzyiqlərin qarşısında mərdi-mərdanə duran,
Öz xalqını zəfərlərdən zəfərlərə aparan,
Müzəffər Baş Komandanım, rəşadətin mübarək!

Əsrlərin sınağından keçə-keçə ucalan,
Qəhrəman övladlarının qeyrətindən güc alan,
Böyük Vətən savaşında şanlı qələbə çalan,
Ey canım Azərbaycanım, ülviyyətin mübarək!

## AZƏRBAYCANDIR

Oğuz ellərinin səsi, sorağı,
Dədə Qorqud yurdu, Vətən torpağı.
Dövlətimin ay-ulduzlu bayrağı,
Millətimin şanı Azərbaycandır.

Birliyə, dostluğa və qardaşlığa,
Sülhə, ədalətə, əməkdaşlığa,
Haqqa gedən yollarda yoldaşlığa
Səsləyən cahanı Azərbaycandır.

Yeraltı, yerüstü dövləti, varı,
Dünyaya açılan sərvət qolları,
Gələcəyə işıq saçan yolları,
Uğurlar karvanı Azərbaycandır.

Min naxış vurubdur təbiət özü,
Gözəl Qarabağım, o Cıdır düzü,
Ədalətin sazı, Vurğunun sözü,
Habilin kamanı Azərbaycandır.

Mübariztək cəsur övladı vardır,
Polad iradəli Poladı vardır,
Haqqını qoruyan inadı vardır,
Qarabağ dastanı Azərbaycandır.

Ətirli, çiçəkli laləzar yurdum,
Qüdrətli dövlətim, müzəffər ordum,
Dəmir yumruq ilə düşməni vurdum,
İgidlər məkanı Azərbaycandır.

Zəfər bayraqları süzür göylərdə,
Qələbə sevinci gəzir ellərdə,
Ali Baş Komandan qalib sərkərdə,
İlhamın ünvanı Azərbaycandır.

Qeyrətdir, şərəfdir, nəfəsdir, candır,
Azərbaycandır, Azərbaycandır!
25.07.2021

## ƏRDOĞAN GƏLİB

Gözün aydın, Azərbaycan,
Gör kim gəlib sənə mehman.
Dilində "can Azərbaycan",
Türk oğlu Ərdoğan gəlib.

Gülər üzlü, xoş niyyətli,
Saf imanlı, türk qeyrətli,
Ciddi, məğrur, qətiyyətli,
Ər oğlu Ərdoğan gəlib.

Yaxşı gündə, yaman gündə,
Hər zaman əlim əlində,
"Qardaşım" sözü dilində,
Düz sözlü Ərdoğan gəlib.

Zəfər bayramına gəlib,
Xoş gəlib, səfa gətirib,
Türkün salamın yetirib,
Dost, qardaş Ərdoğan gətirib.
16.06.2021

## ÇANAQQALA - QARABAĞ

Nə vaxt ki, düşmən qudurdu,
Hiddətləndirdi boz qurdu,
O da vurdu, bu da vurdu,
Çanaqqala - Qarabağ.

Döyüş bayrağı ucaldı,
Əsgər zəfər marşı çaldı,
Şəhid qisasını aldı,
Çanaqqala - Qarabağ.

İki dövlət, iki ordu,
Bir-birinə arxa durdu,
Bir Vətənin iki yurdu -
Çanaqqala - Qarabağ.

## ŞƏHİD ANASI

Sənə ağlama deyə bilmərəm,
Ağlayacaqsan.
Hələ qaralar da bağlayacaqsan.
"Toyunu görməyən balam" - deyib,
Fəryad edəcək, ürəkləri dağlayacaqsan
Şəhid anası.
Şəhidlərin qisası alındıqca,
Hər gün zəfər marşı çalındıqca,
Görəndə ki, hər kəsdə qələbə coşqusu,
həyəcan,
Dəmir yumruğa çevrilmişdir Azərbaycan,
Ürəyin dağa dönəcək, təsəlli tapacaqsan.
Təbəssüm də görünəcək
mübarək dodaqlarında,
Şəhidlər ölməz, Vətən bölünməz şüarı
İşığa çevriləcək kədərli yanaqlarında...
Torpağımızdan düşmən ayağının
ləkəsini silmək üçün,
Yurd yerlərimizdə bayquş
səsini kəsmək üçün
Şəhid qanı gərəkdir.
Bayrağımızdakı qırmızı zolağın solmaması,
Millətimizin gözükölgəli olmaması üçün
Şəhid qanı gərəkdir, şəhid anası.
Millətin mürgüləyən
ruhu yenidən oyanmışdır,
Şuşamız zəfər rənginə boyanmışdır.
Gözün aydın şəhid anası.
Şəhidlərin qisası alınır,
Hər gün yeni zəfər marşı çalınır.
Şəhadətin mübarək, əsgər!
Zəfərimiz mübarək, ana!
08.11.2020

## GÖZÜN AYDIN, XARI BÜLBÜL

Qarabağımız azaddır,
Zəfər bizə qol-qanaddır,
Gör nə toydur, nə büsatdır,
Gözün aydın, Xarı bülbül!

Bax, qədəh qaldırıb lalə,
Gülür çəmən, gülür jalə,
Nəğmə söyləyir şəlalə,
Gözün aydın, Xarı bülbül!

Ay da gülümsəyir sənə,
Şeh qonub çölə, çəmənə,
Quşlar nəğmə deyir yenə,
Gözün aydın, Xarı bülbül!

Azad Şuşanın qoynunda,
Al-əlvan örtük boynunda,
Xoşbəxtsən əsgər toyunda,
Gözün aydın, Xarı bülbül!
17.01.2021